## XATİRƏSİNİN ƏBƏDİLƏŞDİRİLMƏSİ

### Maqsud İbrahimbəyov Yaradıcılıq Mərkəzi

Maqsud İbrahimbəyov Yaradıcılıq Mərkəzi 2018-ci ildə Heydər Əliyev Fondunun dəstəyi ilə Azərbaycanın birinci vitse-prezidenti Mehriban xanım Əliyeva tərəfindən şəxsən yaradılıb. Bu mərkəzə rəhbərlik edən yazıçının həyat yoldaşı Anna İbrahimbəyova mərkəzin yaradılmasının təşəbbüskarı olub.

Mərkəz rəsmi şəkildə 2018-ci il fevralın 1-də Azərbaycanın prezidenti İlham Əliyevin fərmanından sonra fəaliyyətə başlamışdır.

Anna İbrahimbəyova Mərkəzə Maqsud İbrahimbəyovun şəxsi kitabxanasını, ailə yadigarlarını, silah kolleksiyası və rəsm toplusunu bağışlamışdır.

Maqsud İbrahimbəyov Yaradıcılıq Mərkəzi İçərişəhərdə yüz ildən çox yaşı olan binada yerləşir. Bu bina 1914-cü ildə yazıçının babası, neft sənayeçisi Ələkbər Məşədibəyovun sifarişi ilə məşhur memar Zivərbəy Əhmədbəyov tərəfindən tikilib.

Burada Maqsud İbrahimbəyovun muzeyi, yazıçının kitabxanası, ədəbiyyat otağı yerləşir. Ədəbiyyat otağında yazıçının müxtəlif illərdə həm rus, həm Azərbaycan dillərində nəşr olunan, həm də 36 xarici dilə tərcümə edilən kitabları nümayiş etdirilir. Bundan başqa, eksponatlar arasında Maqsud İbrahimbəyovun ədəbi və ictimai-siyasi fəaliyyətinə görə müxtəlif vaxtlarda təltif olunduğu orden və medallar, digər mükafatlar, fəxri fərmanlar, həmçinin 2012-ci ildə yazıçının Nobel mükafatına namizədliyinə dair sənəd də var. Mərkəzdə xüsusi marağınıza səbəb olacaq guşələrdən biri də Maqsud İbrahimbəyova məxsus silah kolleksiyasının nümayiş olunduğu zal olacaq. Maqsud İbrahimbəyovun kolleksiyasında dünyanın müxtəlif ölkələrindən gətirilən və ya dostları tərəfindən hədiyyə olunan qədim silahların nadir nümunələri var.

Mərkəz həftə içi günlər saat 11:00-dan 17:00-dək qonaqlarını qəbul edir.

Ünvan: Bakı şəhəri, Böyük Qala kçəsi 28

***(https://maksudibragimbekov.az)***


























## MAQSUD İBRAHİMBƏYOV ULDUZU

Sea Breeze Şöhrət Xiyabanı dəbdəbəli “The Grand” apart-hotelinin yanında yerləşir. Bu, Azərbaycanın ilk Ulduzlar Xiyabanıdır və dünyanın hər yerindən görkəmli artistlərə, musiqiçilərə, aktyorlara, yazıçılara və rəssamlara həsr olunub. Layihə artıq Müslüm Maqomayev, Tamara Sinyavskaya, Engelbert Humperdink, Devid Foster, Nikol Şerzinger də daxil olmaqla, 24 mədəniyyət və incəsənət xadiminin özəl ulduzunu əhatə edir.

2024-cü il oktyabrın 27-də Sea Breeze kurort şəhərciyinin sahibi Emin Ağalarov və Maqsud İbrahimbəyovun həyat yoldaşı, Maqsud İbrahimbəyov Yaradıcılıq Mərkəzinin direktoru, Azərbaycan Fotoqraflar İttifaqının üzvü Anna İbrahimbəyovanın iştirakı ilə görkəmli yazıçının ulduzunun açılış mərasimi keçirilib.






